# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ

***Firuzə Nuru qızı Əliyeva***

*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*aparıcı elmi işçisi*
*Yasamal rayonu, Hüseyn Cavid pros. 115*
*firuza.eko@gmail.com*

***Açar sözlər:*** *milli, kitabxana, inventar, mədəniyyət, incəsənət*
***Ключевые слова:*** *национальный, библиотека, инвентарь, культура, искусство*
***Keywords:*** *national, library, inventory, culture, art*

**Xülasə:** Məqalədə Azərbaycanda kitabxana işi, onun inkişaf etdirilməsi sahəsində Heydər Əliyevin xidmətləri, Ulu öndərin kitaba, elmə, mədəniyyətə, incəsənətə yüksək qiymət verməsi, gələcək nəsillərə söz, fikir ustadlarının ideyaların çatdırılmasında kitab və kitabxanaları rolunun böyük əhəmiyyət daşıdığı əks etdirilmişdir. Eyni zamanda məqalədə Ulu öndərin Azərbaycana gəlişindən sonra elm, mədəniyyət, incəsənət, nəşriyyatla bağlı fikirləri, Azərbaycan dilinin dövlət dili kimi formalaşması, bütün dövlət idarələrində Azərbaycan dilində sənədlərin qeydiyyatdan keçməsi, milli mədəniyyətimizin inkişaf etdirilməsi, kitab nəşrini bütün elm sahələri üzrə artırılması, ölkədəki dəyişikliklərə - sosial-iqtisadi və digər sahələrə dair ədəbi nəşrlərin sayını artırmaq, kitabxanaların maddi-texniki bazasını genişləndirmək, kitabxanaların maliyyə vəsaitini artırmaq, yeni kitabxana binalarının tikilməsi, onların yeni avadanlıqlarla təmin edilməsi, kitabxana fondlarının durmadan zənginləşməsi, yeni açılmış kitabxanaların kadrlarla təmin edilməsi, kütləvi kitabxanaların mərkəzləşdirilməsi öz əksini tapmışdır. Həmçinin məqalədə müstəqillik illərində Ulu öndərin mədəni quruculuq sahəsində əsaslı islahatlar aparması təhsil, elm, mədəniyyət və incəsənətin yenidən qurulması və inkişafı üçün müxtəlif tədbirlərin həyata keçirilməsi göstərilmişdir.

**Резюме:** В статье освещаются заслуги Гейдара Алиева в развитии библиотечного дела в Азербайджане, подчёркивается его высокое отношение к книге, науке, культуре и искусству, а также особо отмечается значительная роль книг и библиотек в передаче идей мастеров слова и мысли будущим поколениям.

Также в статье рассматриваются взгляды Национального Лидера на науку, культуру, искусство и издательское дело после его возвращения в Азербайджан. Отмечается его ключевая роль в утверждении азербайджанского языка в качестве государственного, внедрении делопроизводства на азербайджанском языке во всех государственных учреждениях, развитии национальной культуры, увеличении объёмов книгоиздания по различным научным направлениям, а также в расширении числа литературных изданий, отражающих социально-экономические и иные изменения в стране.

Особое внимание уделяется мерам по укреплению материально-технической базы библиотек, увеличению их финансового обеспечения, строительству новых библиотечных зданий, оснащению их современным оборудованием, регулярному пополнению книжных фондов, обеспечению новых библиотек квалифицированными кадрами, а также централизации массовых библиотек.

Кроме того, в статье подчёркивается, что в годы независимости под руководством Гейдара Алиева были проведены масштабные реформы в сфере культурного строительства, реализованы различные мероприятия по реконструкции и развитию системы образования, науки, культуры и искусства.

**Summary:** The article highlights Heydar Aliyev's significant contributions to the development of library work in Azerbaijan. It emphasizes the National Leader’s deep appreciation for books, science, culture, and art, as well as the vital role that books and libraries play in preserving and transmitting the ideas of literary and intellectual figures to future generations. The article also discusses Heydar Aliyev's views on science, culture, the arts, and publishing following his return to Azerbaijan. It underlines his pivotal role in establishing Azerbaijani as the state language, ensuring that official documentation in all government institutions was conducted in Azerbaijani, promoting national cultural development, increasing the publication of books across all scientific disciplines, and expanding the number of literary works addressing the country’s socio-economic and other developments. Furthermore, it details efforts to strengthen the material and technical infrastructure of libraries, increase their financial resources, construct new library buildings, equip them with modern technologies, continuously enrich library collections, staff new libraries with qualified personnel, and centralize public libraries. The article also notes that during the years of independence, Heydar Aliyev initiated substantial reforms in the field of cultural development and implemented a range of measures aimed at reconstructing and advancing education, science, culture, and the arts.

*Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer,*
*mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya*
*daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən*
*amillərdən biridir.*
***Ümummilli lider Heydər Əliyev***

Heydər Əliyev XX əsrin II yarısında hakimiyyətə gələrək, Azərbaycanın tərəqqisi və inkişafı üçün tarixi əhəmiyyətə malik işlər görərək, dünya şöhrətli bir şəxsiyyət səviyyəsinə qalxaraq dünyanın ən görkəmli siyasətçilərindən birinə çevrilmişdir.

Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatına uğurlu yeniliklər, dəyişikliklər gətirdi. Məhz Heydər Əliyevin qayğısı nəticəsində həmin dövrdə Azərbaycan sosial-iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf edərək Sovetlər Birliyinin ən böyük mükafatlarına layiq görülmüş, xalqımızın adı həmişə hörmət və iftixarla çəkilmişdir. 1993-cü ildə yenidən Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev müstəqillik tariximizə öz imzasını atdı.

Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan iqtisadiyyatı böyük dəyişikliklər və islahatlar mərhələsi keçmiş, bazar iqtisadiyyatına keçid və dünya iqtisadi sisteminə inteqrasiya prosesi baş vermişdir. Belə ki, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi dövlətçiliyimizlə yanaşı, Azərbaycan elmini, mədəniyyətini, təhsilini də dağılmaqdan və məhv olmaqdan xilas etdi. Mədəniyyətimizin mühüm sahələrindən biri olan kitabxana işi sahəsində də Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Belə ki, kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, kitabxana işinə ayrılan maliyyə vəsaiti artmış, yeni kitabxana binaları tikilmiş, mövcud binalar təmir edilmiş, kitabxanaların avadanlıqla, inventarla təchiz edilməsi işi xeyli yaxşılaşmış, kitabxana fondları durmadan zənginləşmiş, yeni kitabxanalar açılmış, bu kitabxanalar kadrlarla təmin edilmiş, kütləvi kitabxanaların mərkəzləşdirilməsi başa çatmışdır.

SSRİ dağıldıqdan sonra müstəqillik aktına imza atan Azərbaycan Respublikası Heydər Əliyevin sayəsində yeni uğurlar qazandı. Belə ki, tarix XX əsrdə Azərbaycan xalqına ikinci dəfə dövlət müstəqilliyini elan etmək imkanı verdi. Heydər Əliyev deyirdi: “Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müs-

təqilliyi, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil qüdrətli Azərbaycan dövləti çatdırmaqdır". [1, s.152]

Müstəqillik illərində Azərbaycan dövləti iqtisadiyyatla yanaşı, mədəni quruculuq sahəsində də əsaslı islahatlar aparmış, təhsil, elm, mədəniyyət və incəsənətin yenidən qurulması və inkişafı üçün olduqca böyük tədbirlər həyata keçirmişdir. Müstəqillik illərində Heydər Əliyev milli-mənəvi dəyərlərimizin, milli ideologiyamızın məhək daşı olan Azərbaycan dilinin və ədəbiyyatının inkişafına xüsusi önəm vermiş, onların inkişafına qayğı göstərmişdir. Milli mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin dərin bilicisi olan Heydər Əliyev klassik ədəbiyyata, müasir ədəbi prosesə, sənət və mədəniyyətin bütün sahələrinə xüsusi qayğı göstərir, onun inkişafı üçün əlindən gələni edirdi. Heydər Əliyev milli mədəniyyətimizi, ədəbiyyat və incəsənətimizi xalqımızın əsrlərin dərinliklərindən süzülüb gələn, daim zənginləşən milli sərvəti intellektual mülkiyyəti kimi qiymətləndirir, hər bir azərbaycanlıya bu zəngin xəzinədən istifadə etməyi zəruri hesab edirdi. Bu sərvəti yaradanları yüksək qiymətləndirir, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərini, yaradıcı ziyalılarımızı xalqın yetirdiyi dahi insanlar kimi xarakterizə edirdi. Heydər Əliyev yazırdı: "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir. Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar bizim xalqın dahi insanlarıdır". [2, s.420]

Müstəqillik illərində xalqımızın dövlət quruculuğu və mədəni quruculuq sahəsində əldə etdiyi ən böyük uğurlardan biri də Azərbaycan dilinin dövlət dili statusu qazanması, onun bütün dövlət idarələrində və müəssisələrində məcburi qaydada işlənməyə başlamasıdır. Azərbaycan dilinin dövlət dili kimi formalaşmasında, inkişafında və qorunmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev deyirdi: "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini bilməlidir. Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir". [3, s.3]

Qeyd etmək lazımdır ki, müasir informasiya cəmiyyətində kitabsız heç bir inkişafdan danışmaq olmaz.

Ulu öndər M.F.Axundov adına Milli Kitabxanada nəşriyyat işinin əhəmiyyətindən danışarkən demişdir: "Kitab nəşri hər bir ölkənin, xalqın mədəniyyətində, ümumiyyətlə mənəvi ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm də kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti bunu əsas vəzifələrimdən sayıram. Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi də çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq. Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi dövlətin imkanlarının məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda kiçik də olsa özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik". [4, s.399-400]

Heydər Əliyev milli mətbuatın inkişaf etdirilməsinə böyük qayğı göstərir, azad mətbuatın yaradılmasını müstəqilliyimizin əsas vasitəsi hesab edirdi.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyevin əsərləri, zəngin elmi-nəzəri irsi Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan kitabının "Qızıl fondu"na daxildir. Azərbaycan kitabını qoruyub saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəsilə çatdıran kitabxanalar bu mənəvi irsi göz bəbəyi kimi qoruyub saxlamalı, bütün oxucuların istifadəsinə verməlidir.

**Ədəbiyyat**


1. *Əliyev V.H.* Heydər Əliyevin dil siyasəti. Bakı, Azərnəşr, 2003.
2. *Heydər Əliyev*. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Azərnəşr, 1999.
3. *Heydər Əliyev*. Minilliklərin qovşağında. Bakı, Azərnəşr, 2001.
4. *Heydər Əliyev*. Müstəqillik yollarında. Bakı, Azərnəşr, 1997.